# Mingəçevirdə vətənpərvər nəsil yetişir

**Mingəçevir Şəhər İcra Hakimiyyəti və Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə şəhər gənclərinin şəhid ailələrinin üzvləri, qazilər, müharibə veteranları və ictimaiyyət nümayəndələri ilə keçirilən birgə görüşü Aprel döyüşlərinin ildönümünə həsr olunmuşdu.**



"Qələbəmizin təməli" adlı tədbiri şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov açaraq qeyd etmişdir ki, 2016-cı il aprel ayının əvvəllərində Azərbaycanın ön xətt mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən intensiv artilleriya atəşinə məruz qaldıqdan sonra ordumuz əks-hücuma keçərək düşməni geri oturtdu: "Döyüşlər nəticəsində ordumuz Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi istiqamətində bəzi mövqeləri düşməndən azad etdi. Aprel döyüşləri kimi tarixə düşən bu döyüşdə 94 nəfər hərbi qulluqçumuz şəhid oldu. Onlar şəhidlik zirvəsinə yüksəlməklə bizim Zəfər tariximizin başlanğıcını qoydular".

Bu döyüşlərdə Mingəçevirdən Teymur Qasımov, Adil Adilzadə, Rüstəm Əhmədov, Rahim Tağıyevin də şəhid olduqlarını deyən natiq Aprel döyüşlərində Azərbaycan xalqının öz torpaqlarını işğalçı qoşunlardan təmizləmək qüdrətində olduğunu sübut etdiyini vurğulamışdır: "Erməni ordusunun məğlubedilməzliyi mifi bu döyüşlərdən sonra əhəmiyyətini itirdi. Azərbaycan ordusunun torpaqlarımızın hərbi yolla azad edilməsinə inamını möhkəmləndirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq".

İ.İsmayılov çıxışında onu da bildirmişdir ki, ən böyük tarixi əhəmiyyəti Böyük qayıdış prosesinə start verməsi olan Aprel döyüşləri nəticəsində xalqımızın, ordumuzun Vətən müharibəsindəki Qələbəyə inamı yarandı: "Ordumuzun şəxsi heyəti üçün mühüm sınaq və döyüş təcrübəsi olan bu döyüşlərdə qazanılan təcrübə nəticəsində rəşadətli Azərbaycan Ordusu 2020-ci ilin sentyabr-noyabrında və 2023-cü ilin sentybarında düşmənə qəti zərbə vuraraq torpaqlarımızı işğaldan azad etdi".

Prezident İlham Əliyev 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimində demişdir: "Bizim ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanlarında öz gücünü göstərmişdir. Bir çox ölkələr bu gün hərbi sahəyə diqqət yetirməyə başlamışlar. Biz isə bunu artıq 20 ildən çoxdur ki, edirik və bu gün bizdə əldə edilmiş təcrübə, o cümlədən döyüş təcrübəsi əvəzolunmazdır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, ordumuz döyüş meydanında öz gücünü göstərib. Ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik". Dövlət başçısı çıxışında ordu quruculuğunu gücləndirməklə yanaşı, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsinin prioritet olduğunu bildirərək qeyd etmişdir ki, əsas vəzifə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır. ŞİH-in başçısı demişdir ki, biz bu məsələyə çox ciddi yanaşmalıyıq. Gənc nəslin tərbiyə edilməsi gələcəyimizin təmin edilməsi deməkdir: "Elə bir gənc nəsil yetişdirməliyik ki, onlar daimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar. Şübhə yoxdur ki, Azərbaycan cəmiyyəti və təhsil sistemi vətənpərvərlik tərbiyəsi sahəsində qazanılmış nailiyyətləri Vətən müharibəsinin yaratdığı yeni reallıqlara uyğun daha da inkişaf etdirəcəkdir. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi kimi, ilkin olaraq ailədən başlayan bu tərbiyə işi təhsil müəssisələrində də davam etdirilməli və gənclərimizin vətənpərvər ruhda böyüməsinə imkan yaradılmalıdır".

Tədbirdə Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin rəis müavini Kamal Nəcəfli, "Mingəçevir Gənclər evi" Sosial Xidmət Müəssisəsinin əməkdaşı Humay Baxışova, şəhid atası Oruc Əhmədov, 20 saylı tam orta məktəbdə Gənclərin Çağırışaqədərki hazırlıq rəhbəri, Aprel döyüşləri və Vətən müharibəsi iştirakçısı Ramiz Quliyev, Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsi Mingəçevir sektorunun baş məsləhətçisi Xəyal Hətəmov, şəhid anası Gülnarə Abdullayeva, ictimaiyyət nümayəndəsi İnqilab Şirinli çıxış edərək Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında qəhrəmanlıq göstərən şəhidlərimizə Allahdan rəhmət diləmiş, gəncləri vətənpərvər olmağa çağırmışlar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 6 aprel, №71.-S.11.